*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 290-299*

# ƏDƏBİYYATŞÜNASLIQ

https://doi.org/10.62837/2026.3.290

**AYNUR XƏLİLOVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
aynurxalilovaa@gmail.com

## NOVRUZ – TÜRK ETNOMƏDƏNİ HADİSƏSİ KİMİ

Tarixi kökləri ilə əski çağlara dayanıb zaman içərisində etnoyaddaşda qərarlaşan Novruz bayramı millilik faktoru ilə əhatələnib yad təsirlərdən mühafizə olunmuş, folklor statusunda bu günümüzə daşınmışdır.

Geniş əhatədə yayqın olması, böyük təmtəraq və coşqu ilə keçirilməsi, həmçinin, bəzi səciyyəvi xüsusiyyətlərindən dolayı Novruz mərasiminin mənşəyi, məna-mahiyyəti barədə müxtəlif fərziyyələr irəli sürülmüş, onu atəşpərəstliklə, “Ərgənəkon”la, Nuh Peyğəmbərin gəmisinin məlum Dünya tufanından sonra sudan quru əraziyə daxil olduğu, İmam Əlinin (ə.s.) taxta çıxdığı, yaxud “Qədir-Xum” hadisəsinin baş verdiyi günlə və s. bağlamışlar. Lakin bunlar Novruzun əsl mahiyyətini əks etdirirmi?

Bayramda el-obada böyük tonqalların qalanması ənənəsi Novruzun atəşpərəstliklə əlaqələndirilməsi fərziyyəsini ortaya çıxarmışdır. Lakin Novruz törənində “ağırlığım-uğurluğum, azarım-bezarım bu tonqalda qalsın”, yaxud “ağırlığım-uğurluğum, azarım-bezarım bu ocaqda yansın” duasını oxuyub tonqalın üzərindən atlanmaq odu ilahiləşdirən atəşpərəstliyə tamamilə ziddir.

Türk mifoloji dünyagörüşünün formalaşdırdığı od kultuna görə Günəşin rəmzi (!) kimi alınan od-ocaq konkret semantik tutum və funksiyaya malik olub qoruyucu, təmizləyici, şər ruhları qovub uzaqlaşdıran qüvvə kimi qavranılmışdır. Şər ruhlar isə yer üzündə məhz günün qaranlıq vaxtlarında fəallaşırlar. El arasında “günün şər qarışan vaxtı”, yaxud “şər vaxtı” ifadələri və bir sıra əlaqəli inanclar da buradan yaranmışdır. Maraqlıdır ki, İlaxır, yaxud Axır çərşənbədə də tonqalla bağlı ayinlər, bir qayda olaraq, günün məhz axşam vaxtlarında icra edilir. Təkcə elə bu məqam sözügedən ayinin türk mifolojisindən qaynaqlandığını söyləməyə əsas verir.

Professor Füzuli Bayat antropomorflaşmış od ruhundan iyə ruhlardan biri kimi bəhs edərkən türk mifoloji sistemində odun qoruyucu və təmizləyici funksiyalarına da diqqət çəkmiş, doğru olaraq, bunların atəşpərəstliklə ziddiyyət təşkil etdiyini vurğulamışdır: “Od ruhunun antropomorflaşması Zərdüşt dininə yaddır... Türklər oda təmizləyici element kimi baxdıqları halda, Zərdüşt kahinləri,

əksinə, insan nəfəsinin müqəddəs odu kirlədəcəyindən qorxduqları üçün ağızlarını və burunlarını örtərək oda yaxınlaşırdılar. Bu baxımdan, od kultu dedikdə, türk düşüncəsindəki inamlarla hind-İran mənşəli od inancını bir tutmaq olmaz" (3, 19-20).

Türk mifik düşüncəsi yeni ilə, yeni günə bütün ağırlıqlardan, dərd-bəlalardan qurtulub arınıb-durulmuş şəkildə qədəm qoymağın zaman içərisində Novruz törəninin vacib komponentlərindən biri kimi stabilləşmiş tonqalla bağlı sözügedən ayinin icrası ilə təmin olunması inancını formalaşdırmışdır. Ayinin strukturunda da, bir növ, köhnə ildən yeni ilə keçid ifadə olunur – tonqalın bir tərəfi (insanın ilkin dayandığı tərəf) köhnə, digər tərəfi (insanın tonqalın üzərindən atlanıb dayandığı tərəf) isə yeni ili simvolizə edir. Burada qaranlığı yarıb ətrafı aydınladan od-ocağın bütün şər ruhları qovan, sıxıntını, çətinliyi, ağırlığı, xəstəliyi, dərd-bəlanı öz alovu-istisi ilə yandırıb məhv edən *("Ağrım-uğrum tökülsün, // Oda düşüb kül olsun" (2, 31))*, soyuğu uzaqlaşdıran, insanı fiziki və ruhi-mənəvi arındıran gücünə inam hissi ortaya qoyulur. Təsadüfi deyil ki, inanca görə, bayram tonqalını yarımçıq söndürmək olmaz, o, sonadək yanıb özü sönməlidir.

Bütün bunlar onu göstərir ki, tonqalla bağlı bu ayin Novruz törəni üçün səciyyəvi olub türk mifoloji görüşlərilə əlaqəlidir. Və qədim türkün duası da, burada, oda deyil, ona bu magik gücü verən Fövqəltəbii qüvvəyə (!) ünvanlanmışdır.

Novruzun mifik Cəmşidlə əlaqələndirilməsi isə tamamilə absurd olduğu üçün bu barədə əlavə fikir bildirməyə ehtiyac duymuruq. Əli bəy Hüseynzadənin də yazdığı kimi, "İranda Cəmşid adlı bir padşah olmamışdır ki, bir də Novruz icad etmiş olsun" (5).

Hicri təqvimilə 10-cu il zilhiccə ayının 18-də (miladi təqvimlə 632-ci il martın ortaları) Məhəmməd Peyğəmbər (s.ə.s.) "Vida həcci" adlanan sonuncu həcc ziyarətindən dönərkən Qədir-Xumda dayanmalı olur. Peygəmbər burada minlərlə müsəlmanın qarşısında xütbə oxuyur və "Ey camaat, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", – deyib Əli ibn Əbu Talibin imamətliyini elan edir. Bundan sonra "Qədir-Xum" hadisəsi müsəlmanlar, xüsusilə də şiələr tərəfindən hər il qeyd olunur. Novruzun şiəliyin geniş yayıldığı yerlərdə daha təmtəraqlı keçirilməsi də maraqlı və inkarolunmaz faktdır. Lakin Novruz mərasimi tarixi kökləri ilə daha qədim olub struktur-semantik baxımından "Qədir-Xum" hadisəsilə uzlaşmır.

Fərziyyələrdən biri də Novruzun "Ərgənəkon" dastanı ilə əlaqələndirilməsidir. Dastanın məzmununda deyilir ki, Moğol elinə Oğuz xan soyundan olan İl xan hökmdarlıq edirdi. O, tatarların başçısı Sevinc xanla vuruşur, həmişə də ona qalib gəlirdi. Bir dəfə tatarlar hiylə ilə moğolları məğlub edirlər. Tatarlar moğolların böyüklərini öldürür, kiçiklərini isə dustaq edirlər. İl xanın oğlu Qıyan və qardaşı oğlu Nüküz fürsət tapıb qadınları ilə birlikdə dustaqlıqdan qaçıb yurdlarına dönürlər, sonra düşmən əlindən qaçıb geri qayıdan heyvanları da götürüb dar dağ cığırı ilə əlçatmaz-ünyetməz və yaşayış üçün əlverişli olan gözəl bir yerə gedib çıxırlar. Onlar

Tanrıya şükürlər edib Ərgənəkon adlandırdıqları həmin yerdə yaşamağa başlayırlar. Bu minvalla dörd yüz il keçir. Bu müddət ərzində artıb-çoxalan türklərə Ərgənəkon artıq darlıq etdiyindən onlar babalarından eşitdikləri gözəl və geniş yurdlarına dönməyə qərar verirlər. Lakin dörd yüz il əvvəl Ərgənəkona gəldikləri yol artıq unudulmuşdu. Odur ki, bir dəmirçinin məsləhətilə oradakı dəmir mədənini əridib yol açmaq üçün həmin yerə xeyli odun, kömür düzür, dəridən yetmiş körük hazırlayır, od vurub hamısını birdən körükləyirlər. Tanrının köməyi ilə dəmir əriyir və yüklü bir dəvənin keçə biləcəyi qədər yol açılır. Beləliklə, türklər dörd yüz ildən sonra Boz qurdun yol göstəriciliyi ilə Ərgənəkondan çıxıb öz yurdlarına dönürlər və tatarları məğlub edib intiqamlarını alırlar. Ərgənəkondan çıxdıqları günü isə yadda saxlayıb hər il həmin günü bayram edirlər.

Əbülqazi Bahadır xanın məşhur "Şəcəreyi-türki"sinə istinadən türklərin Ərgənəkondan çıxış-qurtuluşlarının yazın əvvəlində – mart ayında baş verdiyinə və onların bu mübarək günü hər il bayram etdiklərinə diqqət çəkən professor Məhərrəm Qasımlı Novruz-Yenigün bayramının ulusumuzun yaddaşında möhkəmlənməsini onun bir sıra xüsusiyyətlərinin Ərgənəkon bayramının bu və ya digər xüsusiyyətlərilə üst-üstə düşməsi ilə də əlaqələndirir: "Olsun ki, Ərgənəkondan çıxış – Yenigün türk etnik-mədəni sisteminin daxilində bir müddət ayrıca mərasim keçirməklə xatırlandıqdan sonra tarixi-siyasi şərait və şərtlərdən asılı olaraq tədricən Yaz-Yenigün-Novruz mərasimi ilə qaynayıb-qarışmışdır" (6, 458). Akademik Nizami Cəfərovun "Ərgənəkon"la bağlı söylədiyi "Görünür, ölən və dirilən təbiət, eləcə də bunun transformları olan ölən və dirilən cəmiyyət barədəki qədim təsəvvürlər də dastanın ideyasına təsir göstərmişdir" (4, 568) fikrinə də dərindən diqqət etsək və nəzərə alsaq ki, Novruzun ilkin-mifoloji qatında ölən və dirilən təbiətlə bağlı qədim təsəvvürlər dayanır, o halda burada "Ərgənəkon"un Novruzdan daha sonrakı zamanlara aid olduğu məntiqini də görmək olar.

Şübhəsiz ki, Ərgənəkonun bu və ya digər mənada Novruza təsiri, onunla eyni müstəvidə kəsişən məqamları olmuşdur, lakin genezisi, struktur-semantik səciyyəsi və s. Novruzun fərqli kontekstdə təqdimatını şərtləndirir.

Novruz mərasimi fəlsəfi mahiyyət etibarilə, əslində, qədim insanın zamanın dövri hərəkəti, astronomik hadisələr... və ətraf aləmin dərkinə can atması ilə bağlı təsəvvür və düşüncələrindən qaynaqlanmışdır.

Etimoloji açımı "Yeni gün" olan Novruz dövri şəkildə baş verən astronomik hadisə ilə bağlı təbiətdə təzahür edən dəyişikliklərlə və insanların bu dəyişikliklərə münasibətilə əlaqədardır. Belə ki, hər il Yer və Günəşin bir-birinə nisbətdə tutduğu mövqeyə uyğun olaraq Günəşin Yerin Şimal və Cənub yarımkürələrini bərabər şəkildə işıqlandırması ilə planetimizdə yaz gecə-gündüz bərabərliyi prosesi baş verir və Günəşin Yerin Şimal yarımkürəsinə doğru hərəkətilə Şimal yarımkürəsində yaz fəsli başlayır. Təxminən, 21 marta təsadüf edən həmin gün Novruz – yazın gəlməsi,

yeni ilin, yeni günün başlanması kimi bayram edilir. Bu kontekstdə Novruz insan-təbiət münasibətlərinin təzahürüdür.

Fəsil əvəzlənməsini şərtləndirən bu proseslər nəticə etibarilə yaşam üçün əlverişli olub onu asanlaşdırır, insanın təbiətin verdiklərilə (soyuğun isti ilə əvəzlənməsi, bir çox müşküllərin mümkünə çevrilməsi, təbii şəkildə yetişən müxtəlif qida məhsulları...) yanaşı, ondan səmərəli istifadəsi, məsələn, torpağı əkib-becərməsi üçün mövsümi şərait və zəmin yaradır. Təbiətin bir hissəsi olan və bunu hələ ilkin-ibtidai düşüncə ilə də özünəməxsus şəkildə qavrayan insan özünü təbiətdən, onda müşahidə etdiyi hadisə və dəyişikliklərdən kənarda hiss edə bilməzdi. Bir sıra Novruz inancları, adət-ənənələri, ayin-ritualları da məhz insan-təbiət münasibətləri kontekstinə hesablanmış, hətta bəziləri təbiətə magik təsirə yönəldilmiş vasitə kimi düşünülmüşdür. Zaman keçdikcə bunlar ənənə halını almış, bir hissəsi Novruzun vacib və stabil komponentinə çevrilərək atributlaşmışdır. Məsələn, ilkin-mifoloji məzmununda təbiətə magik təsir vasitəsi kimi düşünülən, yeni gələn ilin gözəl keçməsi, bol ruzi, bərəkətli əkin-biçin niyyətilə cücərdilən səməni *("Səməni, saxla məni, // İldə göyərdərəm səni")* zaman içərisində Novruzun əsas atributlarından biri kimi stabilləşmişdir.

Görkəmli folklorşünas-alim Məmməd Hüseyn Təhmasib səməni cücərdilməsinin magik xüsusiyyətinə diqqət çəkərək yazır: "...qədim əkinçi, azərbaycanlı torpağın oyanmağa başladığı günlərdə evdə, yəni öz əli ilə yaratmış olduğu süni şəraitdə taxıl göyərdir. Bununla o, ... bənzər hadisələr arasındakı daxili əlaqədən istifadə edərək təbiətə, onun tabe olmaq istəməyən amansız və əsrarəngiz qüvvələrinə təsir etməyə çalışır. O, evdə süni surətdə səməni göyərtməklə geniş əkin yerlərinə səpmiş olduğu taxılın da beləcə göyərməsi üçün sehr edir" (7, 86-87).

Novruz təbiətin canlanmasının, bir növ, dirilməsinin müjdəçisi, yaşamın və ruzi-bərəkətin rəmzi kimi alınan fəslin başlanmasıdır. İnsanlar həyat üçün müxtəlif çətinliklər yaradan soyuq və şaxtalı qışın yer üzünə dirilik, yaşıllıq, sağlıq və bərəkət gətirən, onları fiziki və mənəvi baxımdan yüksək ovqata kökləyən yaz fəslilə əvəzlənməsini xüsusi coşqu ilə qarşılayıb zaman içərisində böyük bir törən (Novruz törəni) halında bayram etmiş, mövsümlə əlaqəli təsərrüfat işlərində bol ruzi əldə edilməsi, yeni ilin bolluq şəraitində keçməsi üçün bir-birlərini uğurlamışlar. Bu kontekstdə Novruz yeni ilin başlanması ilə yanaşı, təbii olaraq, həmçinin, yazın ekvivalenti kimi düşünülmüşdür. Novruz mərasiminin mifoloji-dualist düşüncədən doğan qışla yazın mübarizəsinin obrazlı şəkildə təsvir olunduğu məşhur "Kosa-Kosa" tamaşasının əsasında da qışdan yaza keçid – qışın yola salınması və yazın qarşılanması ideya-məzmunu dayanır.

Qeyd etdiyimiz kimi, Novruzun ilkin-mifoloji qatında türklərin tanrıçılıq görüşlərində önəmli yer tutan ölüb-dirilmə mifologemi (burada təbiətlə bağlı) aparıcı mövqedədir. "Təbiətin hər il qışda ölməsi və yazda yenidən dirilməsi türklər tərəfindən hərfi anlamda qəbul edilirdi. Bundan əlavə, Günəş və Ayın hər gün

batması, səhəri gün yenidən doğması da ölüb-dirilmə mifologeminin başqa bir aspektini təşkil edir" (1, 242). Buna görə də Zaman faktorunun həm təbiətə, həm də bilavasitə və bilvasitə insanın özünə maddi-fiziki və ruhi-psixoloji təsir gücündə olduğunu dərk edən qədim türklər yaşamın düzənini təbiətin müvafiq zamanlarına uyğun nizamlamışlar. Bu kontekstdə dirilmə, yenidən doğulma, yeni başlanğıc, ruhi-mənəvi təzələnmə anlamlarında qavranılan zamanın başlanmasının (Novruzun – yazın gəlməsinin) bayram edilməsi tamamilə qanunauyğundur.

İlkin şəkli əski çağlara dayanıb uzun bir zaman içərisində tarixi təkamül prosesi keçirərək zəngin mənəvi-mədəni keyfiyyətlər qazanan Novruzun indiki halında tərkibinin "təbiətin oyanmasını əks etdirən əski mifoloji qat və müxtəlif tarixi dönəmlərin ovqatını ifadə və inikas edən siyasi-ideoloji qat" olmaqla iki əsas qatdan ibarət olduğunu göstərən professor Məhərrəm Qasımlı, burada, doğru olaraq, mövsüm mərasiminin genetik başlanğıc, təkamül prosesi və tarixi-tipoloji səciyyəsini əks etdirən birinci qatın əsas və aparıcı axarı təşkil etdiyini vurğulayır: "Yüzilliklər aşıb keçmiş, siyasi-ideoloji sistemlərin biri digərini əvəz etmiş, hər yeni gələn sistem Novruzu özününkü etməyə çalışmış, ancaq buna axıracan nail ola bilməmişdir. Təbiətin oyanışını əks etdirən ilkin mifoloji qat xalqın etnoqrafik həyatına qovuşaraq əsl xalq bayramını ortaya gətirmişdir.

Bu gün Azərbaycanda keçirilən Novruz hər cür siyasi-ideoloji rənglərdən azad olaraq, sözün həqiqi mənasında, ilkin qatla – təbiətin oyanışı, yazın gəlişi ilə bağlı insanın işığa, həyata, yeni günə, xoş güzərana, aydın sabahlara inamını ifadə edən saf və duru bir təqvim mərasiminə çevrilmişdir" (6, 459-460).

Mifoloji və tarixi zəminə malik olan Novruz zaman içərisində elmi əsaslarla təsbitlənərək daha da möhkəmlənmiş, əhəmiyyətli, oturuşmuş və stabil mövqe qazanmışdır. XI yüzillikdə Böyük Səlcuqlu Dövlətinin hökmdarı Sultan Məlikşah bir sıra nöqsanların aradan qaldırılması, müəyyən dəqiqləşdirilmələr aparılması, dövlət-əhali münasibətlərinin tənzimlənməsi, vergi yığımının ilin münasib vaxtına uyğun nizamlanması... üçün dövrün tanınmış alim-şairi Ömər Xəyyamın rəhbərliyi ilə yeni təqvim hazırlanmasına göstəriş verir. Mükəmməl dəqiqliklə hazırlanan və Sultan Məlikşahın şərəfinə "Cəlali təqvimi" adlandırılan yeni təqvimdə Novruz öz elmi təsbitini də tapır və 21 mart Novruz – yeni ilin ilk günü kimi rəsmiləşdirilir.

Bu tarixi hadisəyə diqqət yetirən ədəbiyyatşünas-alim Azər Turan Novruz bayramının tarixi inkişaf mərhələsində və xalq içərisində daha da möhkəmlənməsində, qanunauyğun olaraq, Səlcuqlu amilinin təsirini ön plana çəkir: "Bizim bu gün qutladığımız Novruzun bütün komponentləri Səlcuqlularla, yəni özümüzlə, Oğuzla başlayan bir tarixi mərhələnin içində gəlişib" (8). Alim, həmçinin, Novruzun geniş arealda, hətta müxtəlif millətlər tərəfindən qeyd olunmasını da dövlət sərhədləri böyük bir coğrafi ərazini işarələyən Səlcuqlu amili ilə bağlayır.

Novruz bayramı türk etnomədəni hadisəsi kimi ortaya çıxmışdır və etnosun uzun zaman içərisində yaradıb-yaşatdığı mənəvi-mədəni irsdir. Türk mifoloji

dünyagörüş sisteminə və qədim inanclarımıza dayanıqlı olan Novruz türkün yaşam fəlsəfəsini əks etdirir.

Novruz bayramı Azərbaycanda daha möhtəşəm keçirilir. Törən ümumtürk ortaq cəhətlərlə yanaşı, məhz bizə (oğuzlara) – Azərbaycan türklərinə aid qədim təsəvvür və düşüncələrdən gələn məqamlar, etnoqrafik xüsusiyyətlər, folklor obraz və motivləri və başqa bu kimi amilləri içəriləyərək özünəməxsus şəkildə və təntənə ilə qeyd olunur.

Sovet dönəmində milli və dini bayramların, o cümlədən Novruz mərasiminin qeyd olunmasına bolşevik-proletar rejimi tərəfindən müəyyən maneələr yaradılır, 1929-cu ildə isə rəsmi qadağa qoyulur. Lakin buna baxmayaraq xalq öz əziz bayramını gizli şəkildə yaşatmaqda davam edir. Yalnız 1967-ci ildə rəsmi Moskvanın icazəsi ilə Azərbaycanda Novruz bayramı təşkil olunur. Lakin bayramın təntənəsi, xalqın coşqu və kütləviliyi gözlənildiyindən daha yüksək olur və bundan ehtiyatlanan rəsmi Moskva Novruzun keçirilməsinə yenidən qadağa qoyur. Buna baxmayaraq, Novruz yenə də hər bir evdə, eldə-obada böyük sevinc hissi ilə keçirilməkdə davam etdirilir.

Azərbaycan müstəqillik qazandıqdan sonra Novruz bayramı Azərbaycanın ümummilli bayramı kimi rəsmiləşdirilir və həmin vaxtdan etibarən hər il ölkəmizdə dövlət səviyyəsində təmtəraqla qeyd olunur.

Milli kimliyimizi, folklorumuzu, etnoqrafik yaşam tərzimizi, mənəvi-mədəni dəyərlərimizi özündə yaşadan Novruz bayramı biz türklərə – oğuzlara köçəri deyənlər üçün ən tutarlı cavabdır! Çünki bu bayram köçərilərin deyil, qədim dövrlərdə əsas əmək fəaliyyəti əkinçilik olub oturaq həyat tərzi keçirən, torpağa-yurda bağlı olan yüksək dəyərlərə malik böyük bir elin-ulusun bayramıdır!

## ƏDƏBİYYAT

**1.** Acalov Arif. Mifologiya. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, I cild. Şifahi xalq ədəbiyyatı. Bakı, Elm, 2018, s.233-262.
**2.** Azərbaycan folkloru antologiyası. 2 cilddə, I cild (toplayıb tərtib edəni Əhliman Axundov). Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968.
**3.** Bayat Füzuli. Od ruhu. Folklor və etnoqrafiya jurnalı. Bakı, Uğur, 2004, №3, s.18-27.
**4.** Cəfərov Nizami, Vəliyev Kamil. Qədim türk eposu. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, I cild. Şifahi xalq ədəbiyyatı. Bakı, Elm, 2018, s.553-588.
**5.** Hüseynzadə Əli bəy. Novruzi-inqilab. "Füyuzat" jurnalı, 1907, №12.
**6.** Qasımlı Məhərrəm. Folklor və ədəbiyyat araşdırmaları. Bakı, Elm və təhsil, 2017.
**7.** Təhmasib Məmməd Hüseyn. Seçilmiş əsərləri. 2 cilddə, I cild (tərtib edənlər Məhərrəm Cəfərli, Asif Hacılı, Elşən Şükürlü). Bakı, Mütərcim, 2010.
**8.** Turan Azər. Səlcuqlu hökmdarı Cəlaləddin Məlikşahın rəsmiləşdirdiyi bayram. Ədəbiyyat qəzeti. Bakı, 20 mart 2021.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 290-299*

**AYNUR XƏLİLOVA**
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
aynurxalilovaa@gmail.com

# NOVRUZ – TÜRK ETNOMƏDƏNİ HADİSƏSİ KİMİ

**Açar sözlər:** Novruz bayramı, yaz fəsli, türk etnomədəni hadisəsi, Sultan Məlikşah, Azərbaycanın milli bayramı, Oğuz türkləri

Milli-bəşəri məzmun kəsb edən, folklorumuzu, etnoqrafik yaşam tərzimizi özündə əks etdirən Novruz Azərbaycanda dövlət səviyyəsində xüsusi təmtəraqla qeyd olunan milli bayramdır.

Novruz mərasiminin mənşəyi barədə müxtəlif fərziyyələr irəli sürülmüş, onu atəşpərəstliklə, "Ərgənəkon"la, Nuh Peyğəmbərin gəmisinin sudan quru əraziyə daxil olduğu günlə, İmam Əlinin (ə.s.) taxta çıxdığı, yaxud "Qədir-Xum" hadisəsinin baş verdiyi günlə... bağlamışlar. Lakin bu hadisələr Novruz bayramının əsl mahiyyətini əks etdirmir.

Etimoloji mənası "Yeni gün" olan Novruz çox qədim tarixə malik olub, dövri şəkildə baş verən astronomik hadisə ilə bağlı təbiətdə təzahür edən dəyişikliklərlə və insanların bu dəyişikliklərə münasibətilə əlaqədardır. Belə ki, hər il Günəşin Yerin Şimal və Cənub yarımkürələrini bərabər şəkildə işıqlandırması ilə planetimizdə yaz gecə-gündüz bərabərləşməsi prosesi baş verir və Yerin Şimal yarımkürəsində yaz fəsli başlayır. Təxminən, 21 marta təsadüf edən həmin gün Novruz – yazın gəlməsi, yeni ilin, yeni günün başlanması kimi bayram edilir.

Novruz insan-təbiət münasibətlərinin təzahürüdür. İnsanlarımız Novruz mərasimini keçirməklə həyat üçün müxtəlif çətinliklər yaradan soyuq və şaxtalı qışın yer üzünə dirilik, yaşıllıq, sağlıq və bərəkət gətirən, yaşayış üçün əlverişli şərait yaradan yaz fəslilə əvəzlənməsini coşqu ilə, xoş ovqatla qarşılayıb böyük bir törən halında bayram etmiş, mövsümlə əlaqəli təsərrüfat işlərində bol ruzi əldə edilməsi, yeni ilin bolluq şəraitində keçməsi üçün bir-birlərini uğurlamışlar. Bu baxımdan Novruz, yeni ilin başlanması ilə yanaşı, həmçinin, yazın ekvivalenti kimi də düşünülmüşdür.

XI yüzillikdə Böyük Səlcuqlu Dövlətinin hökmdarı Sultan Məlikşah bir sıra nöqsanların aradan qaldırılması, vergi yığımının ilin münasib vaxtına uyğun nizamlanması, dövlət-əhali münasibətlərinin tənzimlənməsi üçün dövrün tanınmış alim-şairi Ömər Xəyyamın rəhbərliyilə yeni təqvim hazırlanmasına göstəriş verir. Mükəmməl dəqiqliklə hazırlanan və Sultan Məlikşahın şərəfinə "Cəlali təqvimi" adlandırılan yeni təqvimdə Novruz öz elmi təsbitini də tapır və 21 mart Novruz – yeni ilin ilk günü kimi rəsmiləşdirilir.

Novruz türk etnosunun yüzilliklər boyunca yaradıb-yaşatdığı mənəvi-mədəni irsdir. Türk mifoloji düşüncə sisteminə və qədim inanclarımıza söykənən Novruz türkün yaşam fəlsəfəsini əks etdirir. Bu baxımdan, əminliklə deyə bilərik ki, Novruz bayramı türk etnomədəni hadisəsi kimi yaranmışdır!

**AYNUR KHALILOVA**
*PhD in Philology, Associate Professor*
Azerbaijan National Academy of Sciences
İnstitute of Literature named after Nizami Ganjavi
aynurxalilovaa@gmail.com

## NOVRUZ AS A TURKIC ETHNOCULTURAL PHENOMENON

**Keywords:** Novruz holiday, spring, Turkic ethnocultural phenomenon, Sultan Malik-shah, national holiday of Azerbaijan, Oghuz Turks

Novruz, which has a national-human content, reflects our folklore and ethnographic way of life, is a national holiday celebrated with special solemnity at the state level in Azerbaijan.

Various hypotheses have been put forward about the origin of the Novruz ceremony, which is associated with fire-worship, “Ergenekon”, the day when the Prophet Noah’s ark entered the land, the day when İmam Ali came to power, or the date of the event at Ghadir-Khumm. However, these events do not reflect the true nature of Novruz.

Novruz, which translates to “New Day” in English, has a long and rich history and is linked to the changing seasons and people’s responses to these seasonal transitions caused by astronomical events. Every year, as the Sun equally illuminates both the Northern and Southern Hemispheres, the Spring Equinox occurs on Earth, marking the start of spring in the Northern Hemisphere. This day, which typically occurs around March 21st, is celebrated as Novruz, signifying the arrival of spring and the beginning of a new year.

Novruz is a manifestation of human-nature relations. By celebrating Novruz, our people enthusiastically welcomed the replacement of the cold and frosty winter, which creates various difficulties for life, with spring, which brings vitality, greenery, health and prosperity to the earth, and creates favorable conditions for life. They were greeted Novruz in a good mood and celebrated it in a big ceremony. They succeeded in getting enough food for the seasonal farms and for the New Year to be spent in abundance. From this point of view, Novruz, along with the beginning of the new year, was also thought of as the equivalent of spring.

Sultan Malik-shah, the ruler of the Great Seljuk State in the 11th century, ordered the preparation of a new calendar under the leadership of the famous scientist and poet Omar Khayyam to eliminate a number of shortcomings, regulate tax collection in accordance with the appropriate time of year, for the regulation of state-population relations. İn the new calendar, which was prepared with great precision and named “Jalali Calendar” in honor of Sultan Malik-shah, Novruz finds its scientific confirmation, and March 21 Novruz is formalized as the first day of the new year.

Novruz is a centuries-old spiritual and cultural tradition that has been created and maintained by Turkic-speaking ethnic groups. Based on the Turkic mythological system of thought and our ancient beliefs, Novruz reflects the life philosophy of the Turkic people. From this point of view, we can say with confidence that Novruz holiday was created as a Turkic ethnocultural phenomenon!

**АЙНУР ХАЛИЛОВА**
Доктор философии по филологии, доцент,
Азербайджанская национальная академия наук
Институт литературы имени Низами Гянджави

## НОВРУЗ КАК ТЮРСКОЕ ЭТНОКУЛЬТУРНОЕ СОБЫТИЕ

**Ключевые слова:** праздник Новруз, весна, тюркское этнокультурное событие, султан Мелик-шах, азербайджанский национальный праздник, огузские турки

Новруз, имеющий национально-человеческое содержание и отражающий наш фольклор и этнографический образ жизни, является национальным праздником, отмечаемым с особой торжественностью на государственном уровне в Азербайджане.

Были выдвинуты различные гипотезы о происхождении церемонии Новруза, связывающие его с огнепоклонением, «Эргенеконом», днем, когда корабль пророка Ноя вышел на сушу из воды, днем восшествия на престол имама Али (мир ему), или событием «Кадир-Хум». Однако эти события не отражают истинную сущность праздника Новруз.

Этимологическое значение Новруза – «Новый день», и он связан с изменениями в природе, которые периодически происходят из-за астрономических событий, и с реакцией людей на эти изменения. Таким образом, каждый год, когда Солнце одинаково освещает Северное и Южное полушария Земли, на нашей планете происходит процесс весеннего равноденствия, и весна начинается в Северном полушарии Земли. В этот день,

который приходится примерно на 21 марта, отмечается Новруз как приход весны, начало нового года, нового дня.

Новруз – это проявление взаимоотношений человека и природы. Проводя церемонию Новруза, наш народ с энтузиазмом и радостью приветствовал смену холодной и морозной зимы, создающей различные трудности для жизни, на весну, приносящую жизненную силу, зелень, здоровье и плодородие земле, создающую благоприятные условия для жизни, и отмечал это торжественным празднованием, желая друг другу удачи в сельскохозяйственных работах, связанных с этим сезоном, чтобы они могли получить обильное пропитание и чтобы новый год прошел в изобилии. В этом отношении Новруз считался не только началом нового года, но и эквивалентом весны.

В XI веке султан Мелик-шах, правитель Великого Сельджукского государства, поручил под руководством известного в то время учёного-поэта Омара Хайяма составить новый календарь, чтобы устранить ряд недостатков, скорректировать сбор налогов в соответствии с временем года и упорядочить отношения между государством и населением. В новом календаре, составленном с абсолютной точностью и названном «Календаром Джалали» в честь султана Мелик-шаха, Новруз также находит своё научное определение, а 21 марта официально закрепляется как Новруз – первый день нового года.

Новруз – это духовное и культурное наследие, созданное и проживаемое тюркскими этносами на протяжении веков. Основанный на тюркской мифологической системе мышления и наших древних верованиях, Новруз отражает тюркскую философию жизни. С этой точки зрения мы можем с уверенностью сказать, что праздник Новруз возник как тюркское этнокультурное событие!

**Rəyçi: filologiya elmləri, doktoru, professor Məhərrəm Qasımlı**